https://doi.org/10.59849/2310-5399.2025.4.69
UOT 008:316.42

**Fəridə Quliyeva**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Memarlıq və İncəsənət İnstitutu*
*(Azərbaycan)*

*feridequliyeva.66@mail.ru*

# ÜZEYİR HACIBƏYLİ və CAVİDLƏR AİLƏSİ

**Xülasə:** Məqalədə Azərbaycan musiqi mədəniyyətinin dahi nümayəndəsi Üzeyir Hacıbəylinin Cavidlər ailəsi ilə mənəvi, insani və yaradıcılıq əlaqələri tədqiq edilir. Araşdırmada bəstəkarın Hüseyn Cavid və onun ailəsinə, xüsusilə repressiya illərində göstərdiyi mənəvi və maddi dəstək arxiv sənədləri, xatirələr və məktublar əsasında işıqlandırılır. Üzeyir Hacıbəylinin humanist dünyagörüşü və yüksək mənəvi keyfiyyətləri konkret tarixi faktlarla əsaslandırılır. Məqalədə Ərtoğrol Cavidin yaradıcılıq yolu, onun Üzeyir Hacıbəylinin tələbəsi kimi formalaşması və erkən faciəli taleyi də araşdırma obyektinə çevrilir. Eyni zamanda Cavidlər ailəsinin Azərbaycan mədəniyyət tarixindəki yeri və taleyi geniş kontekstdə təqdim olunur. Tədqiqat Üzeyir Hacıbəylinin yalnız böyük bəstəkar deyil, həm də milli mədəniyyətin fədakar qoruyucusu olduğunu göstərir.
**Açar sözlər:** Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Ərtoğrol Cavid, repressiya dövrü, Azərbaycan mədəniyyəti.

**Giriş.** Dahi bəstəkar Üzeyir Hacıbəyli milli tariximizin son dövründə musiqi mədəniyyətimizin əvəzsiz xadimi kimi yadda qalması ilə bərabər, onun eyni anda fədakarcasına maarifpərvər, orijinal səciyyəli xeyriyyəçi və nəhayət çox həssas, qayğıkeş, mərhəmətli şəxsiyyət sahibi olduğunu vurqulamaq, xüsusən də ədəbiyyat, musiqi və fəlsəfə sahələrindəki uğurları ilə məşhur olan Cavidlər ailəsinə göstərdiyi köməkliyi işıqlandırmaq hazırkı məruzənin əsas istiqamətidir.

Məqaləni rəssam Ənvər Əliyevin dostluq xatirəsini canlandıran "İblis" operasının yaranması" əsəri ilə başlamaq istərdim. Bu rəsm real tarixi faktlara

əsaslanaraq əks edilmişdir. Belə ki, rəsmdə piano arxasında oturub yazıb-yaratmağa başladığı "İblis" operasından fraqmenti ifa edən bəstəkar Müslüm Maqomayevin yanında Pənah Qasımov ayaq üstədir. Üzeyir bəy qoltuqda əyləşib. Hüseyn Cavidlə Hənəfi Terequlov stolun arxasında əyləşiblər. Pəncərədə əyləşən gənc isə Ərtoğrol Caviddir [1, s. 62-65].

**Əsas materialın şərhi.** Məlum olduğu kimi, böyük Azərbaycan şairi və mütəfəkkiri Hüseyn Cavid və görkəmli maarifçi Pənah Qasımov – 1920–1937-ci illər arası İstiqlaliyyət küçəsi (keçmiş Kommunist) 8 saylı binanın 3-cü qatında yaşamışlar. Bu bina tanınmış milyonçu Hacı Zeynalabdin Tağıyevin şəxsi təşəbbüsü və maliyyəsilə memar İ.V.Qoslavskinin layihəsi əsasında 1898–1901-ci illərdə tikilmiş və yeni açılan müsəlman qız məktəbi üçün nəzərdə tutulmuşdur. Məktəb 1918-ci ilədək fəaliyyət göstərmişdir. 1920-30-cu illərdə burada Darülmüəllimin (pedaqoji məktəb) fəaliyyət göstərmiş, hazırda isə AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu yerləşir.

Əlbəttə ki, Hüseyn Cavid və Pənah Qasımov bir evli kimi olmuşlar. Pənah bəy darülmüəllimin müdiri, Hüseyn Cavid oranın müəllimi idi. Onu da əlavə edim ki, Pənah bəy, Müslüm Maqomayev və Üzeyir Hacıbəyov bacanaq idilər. Bu səbəbdən onlar bu binaya tez-tez gəlirdilər. Təbii ki, Hüseyn Cavidin iştirakı ilə keçən bu görüşlər qohumluq, dostluq münasibətlərindən əlavə, həm də yaradıcılıq mükalimələri cərçivəsində keçirdi.

Bu haqda Mişkinaz Cavid xatirələrində yazır:

*"Cavid böyük sənətkarımız Üzeyir Hacıbəyli, çoxdan, lap gəncliyindən tanış idi. Yadımdadır, Cavid deyərdi ki, mən də, Üzeyir də Tiflisdə olarkən hər ikimiz "Şeyx Sənan" üzərində işləyirdik. O, "Şeyx Sənan" operası, mən isə "Şeyx Sənan" faciəsi üzərində çalışırdıq. Bir gün növbəti görüşlərimizdən birində o dedi ki, Cavid, "Şeyx Sənan" operasını qurtarmışam, gəl librettosunu oxuyum, qulaq as, gör bəyənirsənmi? Mən ona dedim ki, Üzeyir bəy, sən allah incimə, mən sənin bu istəyinə əməl edə bilməyəcəyəm. Özün bilirsən ki, mən də "Şeyx Sənan" faciəsi üzərində çalışıram. Əgər sənin librettona qulaq assam, qorxuram xəta edib təsir altına düşəm. Yaxşısı budur ki, hələ qoy mən onun intizarında qalım. Sonra böyük həvəs və məmnuniyyətlə sənin librettona qulaq asaram...*

*1936-cı ilin sentyabr ayının 27-də Pənah bəyin kiçik qızı Nigarın ad günü idi. Yenə də dostlar ora toplaşdılar. Söhbət zamanı Üzeyir bəy üzünü Cavidə tutub dedi: "Cavid əfəndi, ozün bilirsən "Koroğlu" üzərində işləyirəm. Ya-*

*man vuruşdayam. Bu yaxınlarda qurtarıram. İnşallah, "Koroğlu"nu qurtarandan sonra ürəyimdə tutmuşam ki, sənin "Şeyx Sənan"ına opera yazım. Cavid dedi: – Üzeyir bəy, mən sənin qulluğunda həmişə hazıram. Nə vaxt istəsən "Şeyx Sənan"a libretto yazaram. ..."* [3, s. 43-46].

Üzeyir bəy Cavidin librettosu əsasında "Şeyx Sənan" operası yazacağını bildirmişdi.

Amma əfsus ki, "Şeyx Sənan" operası üzərində bərabər işləmək niyyəti bu sənətkarlara nəsib olmadı. Dəhşətli 1937-ci il bütün arzulara son qoydu. Cavid əfəndi həbs olunanda oğlu Ərtoğrolun 18, qızı Turanın 14 yaşı vardı.

Türk dünyasının fəxri, Azərbaycan mədəniyyətinin dayağı olan Üzeyir bəy Hacıbəyli böyük dramaturq, filosof şair Hüseyn Cavid əfəndini bir-birinə bağlayan arxadaşlıq telləri və əqidə birliyi olub.

Üzeyir Hacıbəylini yad edən yaradıcı insanlar, onun sənət dostları. eləcə də tələbələri istedadı, bilik və savadı ilə yanaşı, onun yüksək insani keyfiyyətlərindən, humanizmindən, mərd insan olmasından danışırlar. Bu xüsusiyyətlər özünü məhz Cavidlər ailəsinə münasibətdə də büruzə vermişdir.

Belə bir ağır günlərdə Üzeyir bəy dostunun ailəsinə arxa durdu. Baxmayaraq ki, çox qorxulu, təhlükəli zaman idi. "Xalq düşmənləri"nin ailələrinə yaxın insanlar da təqib olunurdular. Hətta Üzeyir bəyin də başı üzərində belə bir kabus dolanmaqda idi. Lakin bütün bunlara baxmayaraq, Ü.Hacıbəyli Cavidin ailəsinə daim mənəvi və maddi dayaq oldu. Öz qayğısını, himayəsini onlardan əsirgəmədi.

Böyük dramaturqun istedadlı oğlu Ərtoğrol Cavid 1940-cı ildə Pedaqoji İnstitutu bitirdikdən sonra Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuşdur. O, 1941–1942-ci illərdə Üzeyir bəy Hacıbəylinin sinfində bəstəkarlıqdan dərs almış, özünü çox istedadlı və bacarıqlı tələbə kimi göstərmiş, Üzeyir bəyin sevimlisinə çevrilmişdir.

Ərtoğrol Cavidin gələcəyinə Üzeyir bəyin çox böyük ümidi vardı. Qeyri-adi istedad sahibi olan Ə.Cavid həm də Azərbaycan Dövlət Konservatoriyası yanındakı Musiqi Elmi-Tədqiqat Kabinetində çalışaraq xalq yaradıcılığı nümunələrinin toplanılması, folklorun nota salınması işi ilə məşğul olurdu.

Ərtoğrolu da repressiyaların zərbə dalğası qurban apardı. Konservatoriya tələbəsi olmasına baxmayaraq, onu əsgərliyə çağırdılar. "Xalq düşməni"nin oğlunu Gürcüstanda çox ağır tunel tikintisi işlərinə göndərdilər. Vərəmə tutul-

du... Onun müəllimləri Üzeyir bəyə, Bülbülə, anasıyla bacısına tez qırılan 24 baharlıq həyatının son aylarında yolladığı məktublarında gerçəkləşməyəcək ümidlər çırpınır...

Ağır vərəm xəstəliyinə tutulan Ərtoğrol vəfatından altı ay əvvəl – 26 aprel 1943-cü ildə Tiflisdən kabinetin rəhbəri Bülbülə göndərdiyi məktubunda nikbinliklə yazırdı: "Mənim indiki planım Naxçıvana getməkdir. Orada hər şey var. Nənəmlə qonşu kəndlərə gedəcəm. Əgər səhhətim imkan versə, kabineti maraqlandıracaq materiallar toplayacam. Yanımda xeyli not və yazı kağızı var" [4, s. 363].

Təəssüf ki, gənc bəstəkar və tədqiqatçı istədiyini həyata keçirə bilmədi. Əcəl macal vermədi, bütün arzuları yarımçıq qaldı.

Ə.Cavidin əsgərlikdən yazdığı məktubları oxuduqca onun nə qədər ağıllı, mərd, canıyanan, qayğıkeş olduğunu görməmək mümkün deyil. Yazdığı məktublarda Ərtoğrol yardım üçün yalnız əziz müəllimi Üzeyir bəyə müraciət edirdi. O, xeyirxah saydığı dahi bəstəkara bir neçə məktub göndərmişdir. Birinci məktub 25 fevral 1942-ci il tarixində yazılmışdır.

*"Hörmətli, Üzeyir bəy!*

*Əsgərliyə getməzdən əvvəl sizinlə görüşmək istədimsə də, qismət olmadı.*

*Yeganə narahatçılığım anam və bacımın acınacaqlı halıdır. Rica edirəm, keçdiyimiz səmimi dərs illəri və ümidli gələcək xatirinə mümkün ola biləcək yardımınızı əsirgəməyin.*

*Anam uşaq bağçasında işləyə bilər. Bacım həm bağçada, həm maşiniskalıq, həm də ibtidai məktəbdə dərs (matematika, dil) deyə bilər.*

*Lakin ən lazım məsələ çətin hallarda nəzarət etmək, ürək vermək, mənəvi yardımdır. Zənn edirəm, rədd etməzsiniz.*

*Hörmətlə, Ərtoğrol".*

İkinci məktubunda isə Ə.Cavid yazırdı:

*"Hörmətli, Üzeyir bəy!*

*İlk dayanacaq mənzilimiz Abxaziya dağları oldu. Hər tərəf qarlı dağlar, soyuq, ağır iş. Bakıdan çıxdığım gündən heç kimdən məktub almamışam, hətta ailəmizdən də.*

*Yavaş-yavaş kimsəsizlik, ayrılıq, nigarançılıq duyğularım artır, səhhətim zəifləyir. Lakin nə olursa-olsun, mən səhhətimi saxlamalıyam.*

*Ən böyük əzab verən, məni rahat buraxmayan səbəb varsa, yalnız ailəmizdir. Mən çox yaxşı bilirəm ki, anam xəstədir, bəlkə də o, yataqda yatır, bacım həyatı dərk eləməyə başlarkən ancaq sıxıntılıq, ağır yaşayış gördü.*

*Mən öz oğulluq borcumu yerinə yetirə bilmədim.*

*Bəzən o dərəcədə bədbinləşirəm ki, yenidən görüşmək ümidi sönür, özümü ən bədbəxt bir fərd zənn edirəm. Ailəmizin rahat dolanmasına əmin ola bilsəydim, kədərim xeyli azalardı.*

*Hörmətlə, tələbəniz Ərtoğrol.*

*15.03.1942".*

Ürək ağrısı ilə oxuduğumuz bu məktubları [2]. Ə.Cavid hələ Tiflisə çatmamış, yolda olarkən qayğıkeş, xeyirxah müəlliminə yazırdı. Anasının, bacısının fikrini və dərdini çəkən 23 yaşlı Ərtoğrol yeganə ümid yeri Ü.Hacıbəylidən kömək diləyirdi. Amma narahat oğul və qardaş bilmirdi ki, peyğəmbər kimi insan olan Üzeyir bəy onsuz da Cavid əfəndinin ailəsi üçün lazımi, mümkün olanları edirdi. Onlara maddi və mənəvi yardım göstərirdi. H.Cavid həbs olunduqdan sonra qohumlarının belə üz döndərdiyi Cavidlər ailəsi, başda Üzeyir bəy olmaqla, yalnız bir neçə nəfərdən munislik görürdü.

Üzeyir bəyin diqqət-nəzəri dostunun ailəsinin üzərindən heç zaman əskik olmurdu. Qorxmaz, cəsarətli insan olan bəstəkar bu ailə ilə bağlı bütün məhdudiyyətləri mərdliklə dəf etməyi bacarırdı.

Cavid əfəndinin yadigarı Turan Cavidi Dövlət Radio Komitəsində ilk dəfə işə düzəldən də məhz Üzeyir bəy olmuşdu. Bu barədə Turan xanım həmişə iftixarla danışardı. Turan Cavidin bununla bağlı etirafları: "Məktubu (söhbət Ərtoğrol Cavidin yazdığı məktubdan gedir) Üzeyir bəyə verdim. Oxudu və Radio Komitəsinə zəng vurdu. Kim idi Üzeyir bəyin bir sözünü iki edən. Məni işə götürdülər. Amma Üzeyir bəylə bağlı bir yanlışımı da söyləmək istəyirəm. Üzeyir bəy Ərtoğrolun məktubunu oxuyub Radio Komitəsinə zəng vurandan sonra həmin məktubu mənə qaytardı. Uzun illər Üzeyir bəyə həm şükrançı oldum, həm də ürəyimdə bir qırıqlıq qaldı.

Düşünürdüm ki, Üzeyir bəy yəqin Ərtoğrolun məktubunu özündə saxlamaqdan qorxdu, çəkindi...

Amma çox-çox illər sonra Üzeyir bəyin arxivində Ərtoğrolun Gürcüstandan ona yazdığı məktubları görəndə təskinlik tapdım. Üzeyir bəy aldığı çoxlu məktubların içərisində Ərtoğrolun məktublarını ayrıca sevgi ilə qoruyub saxlamışdı. Bunu biləndən sonra Üzeyir bəylə bağlı keçirdiyim ikili duyğularıma nöqtə qoyuldu. Həm sevinirdim, həm də Üzeyir bəy barədə yanlış düşündüyüm üçün və onunla bağlı şübhələrimi uzun illər içimdə daşıdığıma görə özümü qınayırdım".

Başqa cür ola da bilməzdi. Çünki Üzeyir bəy heç vaxt ikili həyat yaşamamışdı. Onun bir üzü və bir sözü var idi. Hər zaman olduğu kimi görünmüşdü. Elə bu baxımdan da Cavidlər ailəsinə münasibəti daima birmənalı olmuşdu. H.Cavid kimi bir sənətkarı itirdiyi üçün həmişə qəlbi ağrımışdı. Amma bunu yaxınlarından başqa duyan, bilən olmamışdı. Cavidin ailəsinə isə köməyini heç zaman əsirgəməmişdi.

**Nəticə.** Daim Azərbaycanın, milli mədəniyyətimizin gələcəyini düşünən Üzeyir Hacıbəylinin Cavid əfəndinin istedadlı oğluna xüsusi rəğbəti vardı, ona ümidləri çox idi. Onun bəstələrinə baxanda fərəh hissi keçirirdi. Gələcəkdə böyük bəstəkar kimi şöhrət qazanacağına inanırdı. Ə.Cavid gənc yaşında xeyli musiqi əsərləri yazıb qoymuşdu. Üzeyir bəyin bəstəkarlıq sinfində təhsil alan Ərtoğrol ilk əsərlərindən birini – "Doqquz variasiya"sını sevimli müəlliminə həsr etmişdir. Bundan əlavə, onun Azərbaycan el havaları əsasında yazdığı "Üç prelüd" ("Çal-oyna", "Aşıqsayağı", "Yallı"), iki uşaq miniatürü, anası Mişkinaz xanıma ithaf etdiyi "Naxçıvan mənzərələri" adlı iki musiqi lövhəsini ("Zəngəzur dağlarında", "Batabat yaylaqlarında"), "Sonatina", skripka və fortepiano üçün "Poema", N.Rəfibəylinin şeirinə yazdığı "Eşq olsun" mahnısı və s. əsərləri göstərmək olar. Bunlar Ə.Cavidin yazıb tamamladığı əsərlərdir.

Lakin onun yarımçıq qalmış əsərləri də vardır. Məsələn, böyük simfonik orkestrin müşayiəti ilə lirik-dramatik tenor səsi üçün "Romans-kapriççio" (sözləri Nizaminin), "Şeyx Sənan", "Məhsəti" operaları, "Babəkin andı" simfonik poeması və bir sıra kamera-instrumental əsərləri tamamlanmamışdır.

## ƏDƏBİYYAT:

1. Fəridə İbrahimqızı. Hüseyn Cavid dünyası rəssamların gözü ilə. // Finansist – maliyyə məlumat jurnalı. – Bakı, 2018, № 1(61). – s. 62-65.
2. Hüseyn Cavidin Ev Muzeyi. DK № 8445; 9944; 9945.
3. Mişkinaz Cavid. Cavidi xatırlayarkən. Tərtib edən Turan Cavid. – Bakı, 1978. – s. 43-46.
4. Rafael Hüseynov. Vaxtdan uca. – Bakı, 1987.

**Farida Guliyeva** ***(Azerbaujan)***

**UZEYIR HAJIBEYLI AND THE JAVID FAMILY**

The article examines the spiritual, humanistic, and creative relations between the prominent Azerbaijani composer Uzeyir Hajibeyli and the

Javid family. Based on archival sources, memoirs, and correspondence, the study highlights Hajibeyli's moral and material support for the family of the repressed poet and thinker Huseyn Javid. Special emphasis is placed on the composer's humanistic worldview and ethical integrity during the years of political repression. The research also analyzes the creative development of Ertugrul Javid as a talented composer and a student of Uzeyir Hajibeyli. His tragic fate and unfulfilled artistic potential are considered within the broader context of Azerbaijani cultural history. The article demonstrates Uzeyir Hajibeyli's role not only as a great composer but also as a devoted guardian of national cultural values.

**Key words:** Uzeyir Hajibeyli, Huseyn Javid, Ertugrul Javid, political repression, Azerbaijani culture.

**Фарида Гулиева** ***(Азербайджан)***

**УЗЕИР ГАДЖИБЕЙЛИ И СЕМЬЯ ДЖАВИДОВ**

В статье исследуются духовные, человеческие и творческие связи выдающегося азербайджанского композитора Узеира Гаджибейли с семьёй Джавидов. На основе архивных материалов, воспоминаний и писем раскрывается его всесторонняя поддержка семьи Гусейна Джавида в годы сталинских репрессий. Особое внимание уделяется гуманистическим качествам личности Узеира Гаджибейли и его нравственной позиции в условиях политического давления. В работе также рассматривается творческий путь Эртугрула Джавида как талантливого композитора и ученика Узеира Гаджибейли. Освещается трагическая судьба молодого музыканта и её влияние на историю национальной культуры. Статья подчёркивает роль Узеира Гаджибейли как выдающегося деятеля культуры и защитника духовных ценностей азербайджанского народа.

**Ключевые слова:** Узеир Гаджибейли, Гусейн Джавид, Эртугрул Джавид, репрессии, культура Азербайджана.